

# Yazdıqlarını ekranlaşdıran sənətkar...

## Həsən Seyidbəylinin anım günüdür

Bu gün Xalq artisti, rejissor Həsən Seyidbəylinin vəfatından 45 il ötür. Həsən Seyidbəyli milli Azərbaycan kinosunun inkişafında xüsusi yeri olan, öz adını uğurlu filmləri ilə kino salnaməsinə qızıl hərflərlə yazdıran sənətkarlardandır. O, Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin I katibi, sədri vəzifəsində çalışıb. Filmləri Ümumittifaq Kino festivallarında mükafat və diplomlara layiq görülüb.

"İmtahan", "Qızıl axtaranlar", "Bağlı qapılar" adlı dram əsərləri Azərbaycanda və xaricdə səhnəyə qoyulub. "Telefonçu qız" povesti, "Cəbhədən-cəbhəyə", "Tərsanə", "Çiçək", romanları, "Dəniz cəsurları sevir", "Sən nə üçün susursan" (Hər ikisi İ.Qasımovla birgə) pyeslərinin, "Uzaq sahillərdə" (İ.Qasımovla birgə) əsərinin müəllifidir. "Bizim Cəbiş müəllim", "Nəsimi", "Qızmar Günəş altında", " O, qızı tapın", "Yolda əhvalat", "Uzaq sahillərdə" (İ.Qasımovla birlikdə) və neçə-neçə gözəl filmlərin rejissoru və ssenari müəllifidir..

## Onun üçün əsas meyar istedad idi...

Həsən Seyidbəyli öz filmlərində tanınmayan, amma istedadlı insanları çəkməyə üstünlük verirdi. "Nəsimi" filmi buna sübutdur. Həmin filmdə baş rol üçün namizədlərin sayı çox olub. Lakin Həsən Seyidbəylinin inadı və həssas duyumu yalnız Rasim Balayevə yönəlib.



Gənc bir tələbənin belə bir tarixi şəxsiyyətin, böyük şairin obrazını məharətlə yaradacağına inanan Həsən Seyidbəyli həqiqətən də yanılmayıb. Uzaqgörən insan olan sənətkar işinə də, sənətinə də məsuliyyətlə yanaşıb. Onun üçün əsas meyar istedad istedad olub.

## Həsən Seyidbəyli yazıçı və publisist kimi...

Həsən Seyidbəyli həm də peşəkar publisist idi. İctimai-siyasi xadim kimi diqqət mərkəzində olan bu şəxsiyyət tez-tez xarici ölkələrdə müxtəlif səfərlərdə olub. Hər səfərdən qayıdışı isə mətbuat səhifələrində oçerk, təəssürat, yol qeydləri kimi öz əksini tapıb. Müəllifin bu sahədəki xidmətləri təqdirəlayiqdir. "İlk tanışlıq", "On beş gün Yaponiyada", "Yuqoslaviya xatirələri", "İyirmi gün Amerikada", "Gördüyüm yerlər" adlı publisistik kitablarda məhz səfər təəssüratlarından bəhs edilib.

Həm kinorejissor, həm də yazıçı kimi mükəmməl yaradıcılığa malik olan Həsən Seyidbəyli bir neçə çağırış Azərbaycan Ali Sovetinin və Bakı Sovetinin deputatı kimi də fəaliyyət göstərib. Filmləri Ümumittifaq Kino festivallarında priz və diplomlara layiq görülüb. Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi və sədri vəzifəsində işləmiş Həsən Seyidbəylinin yaradıcı əməyi həmişə qiymətləndirilib. O, "Şərəf nişanı", "Qırmızı əmək bayrağı" orden və medalları ilə təltif edilib.

Rejissorun ölümü çox ani baş verib. Otuz saniyənin içində dünyasını dəyişib. Naharını edəndən sonra qəfildən halı pisləşib. Həyat yoldaşı ona iynə vursa da vəziyyəti düzəlməyib. 1980-ci il iyunun 25-də vəfat edən Həsən Seyidbəylinin 59 yaşı vardı.

*Yeganə BAYRAMOVA*

Yeni Azərbaycan.- 2025.- 25 iyun, №108.- S.8.